# İsa Muğannanın 90 illik yubileyi



Heydər Əliyev Mərkəzində xalq yazıçısı İsa Hüseynovun (Muğanna) yaradıcılığına həsr edilmiş tədbir keçirilib.

Yazıçının 90 illiyi münasibətilə təşkil olunan tədbirdə onun Azərbaycan və Türk ədəbiyyatında özünəməxsus mövqe qazandığı bildirilib. İsa Muğannanın yazıçı kimi altmış illik fəaliyyəti dövründə ölkəmizdə ədəbi mühitin inkişafına sanballı töhfələr verdiyi qeyd olunub, Azərbaycan xalqının yüzillərdən bəri təşəkkül tapmış milli-mənəvi dəyərlərinin qorunması naminə yorulmadan yazıb-yaradan yazıçının öz əsərləri ilə hər zaman oxucuları heyrətləndirdiyi vurğulanıb.

Tədbirin sonunda iştirakçılara yazıçının "İdeal" kitabından hissələr oxunub.

**Heydər Əliyev Mərkəzi.**

# Bilik yarışı

Daşça kənd tam orta məktəbində şagirdlərin dərslərdə əldə etdikləri biliklərin səviyyəsini öyrənmək və möhkəmləndirmək üçün vaxtaşırı müxtəlif tədbirlər keçirilir. Bu yaxınlarda keçirilən bilik yarışı da belə tədbirlərdən biri oldu. Məktəbin müəllimlərindən Namiq Allahverdiyevin, Nəbati Mütəllimovanın, Zəhra Mahmudovanın və başqalarının təşkil etdiyi bilik yarışı çox maraqlı keçdi.

Yarışın nəticələrinə görə "Qalaktika" komandası qoyulmuş sualları daha dolğun və düzgün cavablandırmaqla birinci yerə layiq görüldü.

Komandanın üzvləri Nərmin Səfərəliyeva, Səfər Cəmilov, Leyla Hümbətova, Murad Əzimov öz yüksək hazırlıqlarını nümayiş etdirdilər.

**Fidanə MƏMMƏDLİ,**
**məktəbin IX sinif şagirdi.**

# Müəllim-şagird-valideyn üçbucağı

Qəbələ şəhər 2 nömrəli tam orta məktəbdə "Müəllim -şagird-valideyn münasibətlərinin tənzimlənməsi" mövzusunda dəyirmi masa keçirilib.

Tədbirdə rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova, metodisti Tərbiyə İsayeva, məktəbin müəllimləri və şagirdlərin valideynləri iştirak ediblər.

Tədbiri açan məktəbin direktoru Təranə Səlimova son illər təhsil ocağının qazandığı uğurlardan bəhs edib. O, bildirib ki, "İlin ən yaxşı təhsil müəssisəsi" adına layiq görülən məktəb şagirdləri son illər ərzində ən çox qızıl medala sahib olan tədris ocağıdır. Məktəbin şagirdləri respublika inşa müsabiqəsinin qalibi olublar. Fənn olimpiadalarında tarix fənni üzrə respublika birincisi də məhz bu məktəbin məzunudur. Qeyd olunub ki, ötən tədris ilində 3 nəfər məzun 600-dən yuxarı, 5 nəfər məzun isə 500-dən yuxarı bal toplayıb. Məktəbin məzunu Fidan Cəfərova 685 bal toplayaraq Prezident təqaüdünə layiq görülüb. Diqqətə çatdırılıb ki, bu uğurları davam etdirmək və daha yüksək nailiyyətlər əldə etmək üçün məktəbin müəllimləri əllərindən gələni əsirgəmir, valideynlərlə əməkdaşlığı günün tələbləri səviyyəsində qururlar. Öz məsuliyyətlərini dərk edən pedaqoji kollektiv, elmli, bilkili, intellektual, vətənpərvər vətəndaşlar yetişdirmək üçün xeyli işlər görürlər.

Məktəbin direktoru çıxışında bütün tarixi və əlamətdar günlərlə bağlı tədbirlər, ayrı-ayrı fənlər üzrə açıq dərslər keçirildiyini, müxtəlif viktorinalar, fənn gecələri, tanınmış yazıçı və şairlərin yubiley tədbirləri təşkil edildiyini vurğulayıb. Bütün bu tədbirlərdə valideynlərin həvəslə iştirak etdiyini diqqətə çatdıran təhsil müəssisəsinin rəhbəri ötən müddət ərzində 2 dəfə ümumməktəb valideyn iclası keçirildiyini bildirib. Həmçinin valideynlərin fərdi olaraq məktəbə dəvət olunduqlarını və onlarla fikir mübadiləsi aparıldığını söyləyib. Təranə Səlimova çıxışının sonunda məktəb valideyn komitəsinin sədri Vüqar Rəcəblinin də fəaliyyətinin qənaətbəxş olduğunu qeyd edib.



Rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova çıxışında tədbirin mühüm əhəmiyyətə malik olduğunu bildirib. Diqqətə çatdırılıb ki, milli-mənəvi dəyərlərin şagirdlərə aşılanması və təlimdə keyfiyyətin əldə olunması, təkcə elmi cəhətdən deyil, mənəvi cəhətdən də intellektual şagird yetişdirmək üçün müəllim-şagird -valideyn əməkdaşlığı vacibdir. Düzgün qurulmuş müəllim -şagird -valideyn münasibətləri şagirdin təlimə marağının artmasında mühüm vasitədir.- Qarşılıqlı ünsiyyət şagirdlərin fəallığını artırır, kollektiv şəkildə işləməyə istiqamət verir.

Müəllim-şagird-valideyn münasibətlərinin tənzimlənməsində məktəb psixoloqlarının rolunun da böyük olduğu vurğulanıb. Natiq yaranmış hər hansı problemlərin həllində birgə əməkdaşlığın həyata keçirilməsinin əhəmiyyətindən, məktəbdə aşılanan təlim ilə evdə verilən tərbiyənin üst-üstə düşməsinin effektindən danışıb.

Məktəbin müəllimlərindən Nəzakət Abdullayeva, Aygün Haqverdiyeva, Solmaz Mürsəlova çıxış edərək şagirdlərin formalaşmasında ailənin verdiyi tərbiyənin rolunun əsas olduğunu bildiriblər. Qeyd olunub ki, valideyn məktəblə nə qədər çox əlaqə saxlayarsa, nəticə bir o qədər yüksək ola bilər. Çıxış edən müəllimlər şagirdlərə fərdi yanaşmalğın, onların müsbət keyfiyyətlərini, istedlarını aşkar etməyin müsbət nəticələr verdiyini diqqətə çatdırıblar

Valideynlərdən Vüqar Rəcəbli, Kamran Müzəffərov, Sevda Qasımova, Aygün Əzimova, İlhamə Əzizova və digərləri çıxış edərək məktəbin pedaqoji kollektivinə öz minnətdarlıqlarını bildiriblər.

**Təhminə MİRZƏLİYEVA,**
**məktəbin müəllimi.**
**İlkin Vəlizadə (foto).**

# Tütün məhsullarından istifadənin məhdudlaşdırılması diqqət mərkəzindədir

Azərbaycan Respublikası Prezidentinin "Tütün məhsullarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanunun tətbiqi barədə" 5 iyul 2018-ci il tarixli Fərmanının icrası ilə əlaqədar Respublika Nazirlər Kabineti qərar qəbul etmişdir. Həmin qərar üç istiqaməti əhatə edir.

1. Tütün məmulatlarından istifadənin zərəri barədə maarifləndirmə tədbirlərinin keçirilməsi.

2. Tütün məmulatlarının utilizasiyası.

3. Siqaret çəkmək üçün ayrılmış xüsusi yerlərə dair tələblər.

Adı çəkilən qanun və qərarların icrası ilə əlaqədar Respublika Gigiyena və Epidemiologiya Mərkəzində tədbirlər planı hazırlanmışdır.

Tədbirlər planına əsasən təhsil müəssisələrində müntəzəm olaraq tütün məmulatlarından istifadənin fəsadları barədə maarifləndirici tədbirlər keçirilməlidir. Bu işə təhsil müəssisələrinin rəhbərləri ilə yanaşı tibb işçiləri də cəlb olunmalıdır.

Siqaret satışı ilə məşğul olan bütün ticarət obyektlərində görməli yerlərdə "18 yaşa çatmamış şəxslərə siqaret satışı qadağandır" yazılmış lövhələr asılmalıdır.

Sosial xidmət müəssisələrində, məişət obyektlərində, idman yarışları və başqa kütləvi tədbirlər keçirilən binalarda, mədəni-maarif ocaqlarında, ümumiyyətlə ümumi istifadə olunan bütün ərazilərdə siqaret çəkilməsi qadağandır.

Siqaret çəkiləməsinə yol verilən idarə müəssisə və təşkilatlarda, özəl qurumlarda, iaşə obyektlərində bu məqsəd üçün xüsusi yer ayrılmalıdır.

Siqaret üçün ayrılmış qapalı yerlər bina daxilində insanların ümumi gediş-gəliş, kütləvi toplanma, istirahət yerlərindən, gözləmə zallarından kənarda yerləşdirilməlidir.

Bu yerlərdə təhlükəsizlik tədbirləri nəzərə alınmalı, yanğınsöndürmə qurğuları quraşdırılmalı, havalandırma sistemi ilə təchiz edilməlidir.

İdarə, müəssisə və təşkilatlarda, özəl qurumlarda qeyd olunan tədbirlərin icrası təmin olunmazsa cavabdeh şəxslər "İnzibati xətalar məcəlləsi" nə uyğun olaraq məsuliyyət daşıyırlar.

İnsan sağlamlığının qorunmasında mühüm rol oynayan "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanunun tələblərinin yerinə yetirilməsinə hamı səy göstərməlidir.

**Atif MƏMMƏDOV,**
**GEM-in şöbə müdiri.**

# Müəllimlərin şahmat birinciliyi

Uşaq-gənclər idman-şahmat məktəbində 31 dekabr "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" münasibətilə müəllimlər arasında şahmat üzrə rayon birinciliyi yarışları keçirilmişdir. Yarışların açılışında rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova və məktəbin direktoru Ədalət Əliyev bayram münasibətilə iştirakçıları təbrik etmiş, onlara uğurlar arzulamışlar.

Gərgin keçən şahmat mübarizəsində beynəlxalq dərəcəli idman ustası Araz Alməmmədov I yerə, Sahib Hüseynov II yerə, idman ustası Aydan Hüseynzadə III yerə, idman ustalığına namizəd Ərrəhman Abdulkərimov IV yerə layiq görülmüşlər.

**Nəzakət ƏLİZADƏ,**
**məktəbin işçisi.**

# İqtisadiyyat xəbərləri

### *İqtisadiyyatın qeyri-neft sektorunda 668 min nəfər çalışır*

*2018-ci il noyabrın 1-nə olan vəziyyətə görə, ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 2,3 faiz artaraq 1 milyon 552,8 min nəfər olmuşdur. Onlardan 884,7 min nəfəri dövlət, 668,1 min nəfəri qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.*

*Muzdla işləyənlərin 21,4 faizi təhsil, 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,4 faizi sənaye, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,2 faizi tikinti, 7 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,6 faizi nəqliyyat və anbar təsərrüfatı; 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,6 faizi maliyyə və sığorta fəaliyyəti, 11 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.*

### *11 ayda 72,4 milyard manatlıqdan çox ÜDM istehsal olunub*

*Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-noyabr aylarında ölkədə ümumi daxili məhsul (ÜDM) istehsalı 1 faiz artaraq 72 milyard 432,1 milyon manata çatmışdır. Əlavə dəyərin istehsalı əvvəlki ilin müvafiq dövrünə nisbətən iqtisadiyyatın qeyri-neft sektorunda 1,3, neft sektorunda 0,3 faiz artmışdır.*

*ÜDM-in 45,2 faizi sənayedə, 9,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmirində, 6,8 faizi tikintidə, 6,4 faizi nəqliyyat və anbar təsərrüfatında, 5,4 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıqda, 2,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşədə, 1,5 faizi informasiya və rabitədə, 15,1 faizi digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər isə ÜDM-in 8 faizini təşkil etmişdir.*

*Bu dövrdə informasiya və rabitədə əlavə dəyər istehsalı 9,2, nəqliyyat və anbar təsərrüfatında 7,9, turistlərin yerləşdirilməsi və ictimai iaşədə 7,6, kənd təsərrüfatları, eləcə də balıqçılıqda 4,6, ticarət; nəqliyyat vasitələrinin təmirində 2,7, sənayedə 1,3, digər xidmət sahələrində 0,7 faiz artmış, tikintidə isə 13,1 faiz azalmışdır.*